# AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5311.01 - Müəssisələrin təşkili və idarə olunması

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Gülgün Zeynal qızı Abdıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Texnologiya Universitetinin "Menecment" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Fizuli Əziz oğlu Məmmədov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Anar Fazil oğlu Abbasov**

iqtisad üzrə fəlsəfə doktoru
**Vilayət Zahid oğlu Ramazanov**

iqtisad üzrə fəlsəfə doktoru
**Gülbəs Rəsul qızı Rüstəmova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.10 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffərli (İmanov)**

Dissertasiya Şurasının
Elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, dosent
**Möhübbət Musa oğlu Hüseynov**

# TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son illər iqtisadi artıma nail olan və sənayenin inkişaf dinamikasını təmin edən ölkələr dünya iqtisadiyyatında qabaqcıl mövqelərə yiyələnmək üçün ciddi tədbirlər həyata keçirməkdədir. Ona görə də müasir iqtisadiyyatın ehtiyacları nəzərə alınmaqla iqtisadiyyatın modernləşdirilməsi sənaye sferalarının, xüsusilə də yüngül sənayenin dayanıqlı və davamlı inkişaf mexanizmlərinin yaradılması məsələlərini gündəmdə saxlayır. Bu müstəvidə optimal nəticələrə nail olmaq üçün yüngül sənayedə müasir idarəetmənin tələblərinə cavab verən strateji mexanizmlərin işlənib hazırlanması və onun səmərəli reallaşdırılmasına zərurət yaranır. Mövcud bazar tendensiyalarının və istehlakçı ehtiyaclarının ətraflı təhlilinə, istehsal proseslərində yeni texnologiyaların və innovativ həllərin tətbiqinə, təchizat zəncirinin səmərəli idarə edilməsinə, mövcud bazarda dəyişikliklərə və yeni şərtlərə tez uyğunlaşma bacarığına diqqət yetirilməlidir ki, bu da qlobal iqtisadiyyata uğurlu inteqrasiyanın əsas şərti hesab edilir. Bu baxımdan qloballaşma proseslərinin genişlənməsi iqtisadi sabitliyi poza biləcək bütün maneələrin aradan qaldırılmasını tələb edir, eləcə də, yüngül sənaye müəssisələrinin idarəetmə mexanizmlərinin daim modernləşdirilməsini, yeni strategiyaların, metodların, texnikaların və qabaqcıl texnologiyaların təşkilini və tətbiqini nəzərdə tutur. Bütün bunlar yüngül sənayenin dayanıqlı və davamlı inkişafının təmin edilməsinə yönəlir ki, bu da həmin sahənin şaxələndirilmiş və perspektivli inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Bu çərçivədə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də müəyyən edilən beş istiqamətdən ikisi xüsusilə diqqətə layiqdir: *"dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat"*ın formalaşdırılması və *"rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı"*nın yaradılması[1]. Eyni zamanda "Azərbaycan

[1] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası

Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda "*dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə"* müəyyən edilmiş, və bu çərçivədə *"rəqəmsal texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi"*, *"inhisar subyektlərinin rəqabətə mənfi təsirlərinin qarşısı alınması və bütün bazarlarda rəqabətin gücləndirilməsi"* kimi mühüm məsələlər öz əksini tapmışdır[2]. Dayanıqlı inkişafı təmin edən bu strategiyalara uyğun sahəvi proqramların əsaslandırılması yüngül sənaye sahələrininin inkişafına da öz əsaslı töhvələrini verəcəkdir.

İdarəetmə, bu proses iştirakçılarının inteqrasiyası əsasında həyata keçirilməklə bütün elementlərin sintezini, inteqrasiya olunmuş və spesifik sosial mexanizm kimi öyrənilməsini zərurətə çevirir. İdarəetmə problemi təkcə bu aspektlərlə məhdudlaşmır, istisnasız olaraq bütün elementlərin maksimum rasionallığı və idarətetmə subyektləri arasındakı münasibətlərlə xarakterizə olunur. İdarəetmə xüsusi bir mexanizm olmasına baxmayaraq, tam müstəqil bir proses kimi fəaliyyət göstərə bilmir və o, idarəetmənin spesifikliyini müəyyən edən daha geniş bir sistemə inteqrasiya edilməsini özündə göstərir ki, bu da idarəetmədə tətbiq olunan ümumi prinsip və spesifik xüsusiyyətlərdə öz əksini ifadə edir.

İqtisadi inkişafa yönəlmiş müəssisələrin idarəetmə modelinin formalaşması üçün elmi nəzəri və praktik müddəaların formalaşdırlması idarəetmənin təkmilləşdirilməsi baxımından son dərəcə aktualdır. Bu isə idarəetmə modelinin idarəetmə obyektinə təsir göstərməsi, xarici mühitdəki dəyişikliklərə uyğunlaşması, idarə olunan müəssisələrin məqsədlərinə çata bilməsi və davamlı inkişaf etməsi prosesləri ilə xarakterizə olunur. Buraya idarəetmənin əsas prinsipləri, strateji baxış, hazırlanmış dəyərlər, onun elementlərinin

---

Prezidentinin Sərəncamı: [Elektron resurs] / E-qanun. – Bakı, 2022. URL: https://e-qanun.az/framework/50014

[2] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 avqust tarixli 453s nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı: [Elektron resurs] / E-qanun. – Bakı, 2022. URL: https://e-qanun.az/framework/51339

qarşılıqlı əlaqəsi və quruluşu, nəzarət, inkişafın hərəkətverici qüvvələri və motivasiya siyasəti daxildir.

Qeyd edilənləri nəzərə alsaq, yüngül sənaye müəssisələrinin idarə edilməsi üçün elmi nəzəri modellərin işlənilməsi və onun tətbiqi xüsusi aktuallıq kəsb edir. Bu zaman, strateji idarəetmə problemlərinin həllində innovativ texnologiyalar və istehsalın idarə edilməsi məsələlərinə xüsusi diqqət yetirilir ki, bunlar da öz növbəsində müəssisələrin rəqabətqabiliyyətinin artırılmasına xidmət edir.

Göstərilən problemlərin tədqiqi bir çox iqtisadçıların daim diqqət mərkəzində olmuşdur. Respublikamızda bu istiqamətdə A.Abbasov, Q.Manafov, Q.Səfərov, V.Rüstəmov, T.Hüseynov, F.Məmmədov, M.Tağıyev, G.Yüzbaşıyeva, M.Fərzəliyev və başqaları geniş tədqiqatlar aparmışlar.

Sənaye sahələrinin idarə edilməsi problemlərinə xarici ölkə alimlərindən A.Z. Turkov, A.V. Davıdov, V.L. Makarov, V.V. Afanasyev, V.İ. Knorrinq, L.P. Gorbunov, E.S. Andryuçenko, E.F.Mişçenko, Tompson V., Foster R., Xammer M., H. Fayolle, F. Taylor və başqalarının elmi əsaərlərində rast gəlinir.

Bu müəlliflərin əsərlərində sənaye müəssisələrinin idarə olunmasının nəzəri və metodoloji problemləri təhlil etmişdir. Lakin yüngül sənaye müəssisələrinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi problemlərinin tədqiqi istiqamətində araşdırmalara kifayət qədər geniş yer verilməmişdir. Halbuki yüngül sənaye müəssisələrin inkişafı və idarə edilməsi strategiyalarının formalaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı nəzəri, metodik və tətbiqi tədqiqatların ardıcıl şəkildə həyata keçirilməsi elmi yanaşmaları sistemləşdirməyə imkan verə bilər. Bu baxımdan dissertasiya işində yüngül sənayedə idarəetmənin təkmilləşdirilməsi problemlərin həlli üçün nəzəri-metodoloji müddəaların araşdırılması, idarəetmənin bütün elementlərinin qarşılıqlı əlaqəsinin tədqiqi və müəssisələrin iqtisadi inkişaf perspektivlərinin müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti yüngül sənaye sferası müəssisələri müəyyən edilmişdir. Yüngül sənaye

müəssisələrinin idarə edilməsində istifadə edilən modellər, idarəetmə strukturu və mexanizminin təkmilləşdirilməsi üzrə həyata keçirilən tədbirlər tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi yüngül sənaye müəssisələrinin idarəetmə mexanizminin təkmilləşdirilməsi strategiyasını həyata keçirmək üçün metodoloji müddəaların elmi cəhətdən əsaslandırılmasıdır. Qarşıya qoyulmuş məqsədə uyğun olaraq dissertasiya işində aşağıdakı vəzifələr müəyyənləşdirilir:

- yüngül sənaye sferasının idarə edilməsi vəziyyətinə təsir göstərən mənfi və müsbət amilləri müəyyən edən ümumi nəzəri və metodoloji problemlərin öyrənilməsi;
- yüngül sənaye müəssisələrinin idarəetmə mexanizmlərinin məzmunu və funksiyalarının müəyyən edilməsi;
- yüngül sənaye müəssisələrinin iqtisadi inkişafında idarəetmənin rolunun müəyyən edilməsi;
- yüngül sənayesinin mövcud vəziyyətinin tədqiq edilməsi;
- yüngül sənaye müəssisələrinin idarə edilməsinə təsir edən daxili və xarici amillərin qiymətləndirilməsi;
- yüngül sənayenin idarə olunmasında təşkilati və iqtisadi mexanizmlərin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi;
- yüngül sənayenin strukturunun modernləşdirilməsi və idarə edilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın metodları.** Yüngül sənaye müəssisələrinin idarə edilməsi mexanizmi və inkişafı problemlərini öyrənmək məqsədilə analiz, sintez, iqtisadi analiz, müqayisə, ekonometrik təhlil və s. metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Yüngül sənaye müəssisələrinin idarəetmə mexanizminin təhlili metodologiyası idarəetmə strukturlarının və proseslərinin fəaliyyətinin və səmərəliliyinin hərtərəfli qiymətləndirilməsinə imkan verən sistemli yanaşmanı ehtiva edir.

2. Yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliyinin yüksəldilməsində, bazar mövqeyinin möhkəmləndirilməsində, resurslardan rasional istifadə edilməsində, dividentlərin əldə

olunmasında, davamlı və dayanıqlı inkişafında idarəetmə mexanizmlərinin səmərəliliyinin artırılması, formalaşdırılması və təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

3. Yüngül sənaye sektorunun mövcud vəziyyəti və inkişaf dinamikasının təhlilinin aparılması onu deməyə əsas verir ki, müştəri tələblərinin, texnoloji irəliləyişlərinin və bazar şərtlərinin nəzərə alınması müəssisələrin müəyyən edilmiş hədəflərinə çatmasına imkan yaradır.

4. Yüngül sənaye müəssisələrinin idarəetmə vəziyyətinə təsir edən amillərin müəyyən edilməsi və ekonometrik qiymətləndirilməsi əsas dəyişənlərin (məhsuldarlıq, keyfiyyət, bazar, əsas kapitala yönəldilmiş investisiyalar, insan resurslarının idarə edilməsi və s.) öyrənilməsini və bu amilləri nəzərə alan ekonometrik modelin qurulmasını əhatə edir.

5. Yüngül sənaye müəssisələrinin idarəetmə quruluşunun təkmilləşdirilməsi müəssisələrin rəqabət qabiliyyətliyinin və onun səmərəliliyinin artırılmasının əsas vəzifələrdəndir.

6. Yüngül sənaye müəssisələrinin təşkilati strukturunun inkişafının müasir tələblərə uyğunlaşdırılması, onun koordinasiyasının yaxşılaşdırılması və səmərəliliyinin artırılması vasitələrindəndir.

7. Yüngül sənaye müəssisələrinin istehsal strukturunun modernləşdirilməsi idarəetmə mexanizmlərinin daha da rasional təkmilləşdirilməsinə kompleks yanaşma tələb edir.

**Tədqiqatın elmi yeniliyi**: Dissertasiya işinin elmi yeniliyi aşağıdakı istiqamətlərdə öz əksini tapır:

- yüngül sənayesinin strateji inkişafı üçün idarəetmə proseslərinə yeni yanaşma idarəetmə subyektlərinin inteqrasiyasının təmin edilməsinin zəruriliyini əsaslandırmışdır;
- yüngül sənaye müəssisələrinin idarəetmə mexanizminin parametrlərinin müəyyənləşdilməsinin əhəmiyyəti əsaslandırılmışdır;
- yüngül sənayenin iqtisadi vəziyyətinin və inkişaf meyllərinin təhlili əsasında bu mühüm sənaye sahəsinin inkişafı potensialı müəyyənləşdirilmişdir;

- yüngül sənayenin idarəetmə mexanizminin təkmilləşdirilməsi üçün modernləşdirmə strategiyasının hazırlanması tədbirləri müəyyən edilmişdir;

- yüngül sənayenin strateji idarə olunması, o cümlədən yüngül sənaye müəssisələrinin rəqabətə davamlılığının yüksəldilməsi məqsədilə idarəetmənin səmərəliliyinin artırılması ilə bağlı tədbirlər hazırlanmışdır;

- yüngül sənaye müəssisələrinin idarəetmə mexanizminin modernləşdirilməsi üçün dövlət dəstəyinin və beynəlxalq əməkdaşlığın inkişaf perspektivləri müəyyən edilmişdir;

- müəssisələrin idarə edilməsinin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat nəzəri əhəmiyyəti əldə olunan nəticələrin yüngül sənaye müəssisələrinin idarə edilməsində daha təkmil modelin formalaşması ilə bağlı müddəaların əsaslandırılmasında öz əksini tapır. Eyni zamanda müəssisələrin idarəetmə mexanizminin təkmilləşdirilməsi uzun müddətli dövrdə rəqabət üstünlüklərini təmin etmək üçün əsas proses və mexanizmlərin inteqrasiyası nəzəriyyəsinə əsaslanır. Bu da nəticələrin nəzəri effektivliyini əks etdirən əsas müddəalardandır.

Tədqiqat nəticələrinin praktiki əhəmiyyəti yüngül sənaye müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsi əsaslandırılmış tədbirlərlə xarakterizə olunur və yüngül sənaye sferasında idarəetmənin təkmilləşdirilməsi problemlərinin həlli ilə bağlı müvafiq strategiyaların hazırlanmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın məzmunu nəşr edilmiş 14 məqalə və tezisdə öz əksini tapmışdır. Dissertasiya mövzusu üzrə tədqiqatın nəticələri elmi-nəzəri və praktiki konfranslarda müzakirə edilərək bəyənilmişdir. Tədqiqatın nəticələrini əks etdirən əsas elmi əsərlər sırasında "Yüngül sənaye müəssisələrinin idarə edilməsi prosesində marketinqdən istifadə" (Bakı, 2018), "Пути эффективного использования потенциалом конкурентоспособности предприятий легкой промышленности" (Moskva, 2017), "Müəssisənin idarəetmə sisteminin təkmilləşdirilməsində informasiya texnologiyalarının əsas istiqamətləri" (Gəncə, 2023) və s. göstərmək olar. Tədqiqat işinin

nəticələri “Gəncə Tekstil” Açıq Səhmdar Cəmiyyəti tərəfindən istifadə üçün qəbul edilmişdir (16 iyul 2020-ci il tarixli 218 saylı arayış).

**Tədqiqat işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Azərbaycan Texnologiya Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi mündəricat, giriş (13583), 3 fəsildən (I fəsil – 62114 işarə, II fəsil – 83208 işarə, III fəsil – 52169 işarə), nəticə (6877) və istifadə edilmiş 140 adda ədəbiyyat siyahısından ibarət olmaqla işin ümumi həcmi cədvəllər, şəkillər, sxemlər, diaqramlar, qrafiklər, ədəbiyyat siyahısı istisna olmaqla işin ümumi həcmi 217951 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU

**GİRİŞ**

**I FƏSİL. YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİ MEXANİZMİNİN FORMALAŞMASININ NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ**

1.1. Yüngül sənaye müəssisələrinin idarə edilməsi mexanizminin elmi-nəzəri əsasları

1.2. İdarəetmə metodları, onların məzmunu və funksiyaları

1.3. Yüngül sənaye müəssisələrinin iqtisadi inkişafında idarəetmənin rolu.

**II FƏSİL. YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İSTEHSAL FƏALİYYƏTİNİN VƏ İDARƏ EDİLMƏSİ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Yüngül sənaye müəssisələrinin iqtisadi göstəricilərinin təhlili

2.2. Yüngül sənaye müəssisələrinin iqtisadi inkişaf parametrləri

2.3. Yüngül sənaye müəssisələrinin və istehsal resurslarının idarə edilməsi: daxili, xarici amillərin idarəetməyə təsiri və onların ekonometrik qiymətləndirilməsi

**III FƏSİL. YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİ MODELLƏRİ VƏ İDARƏETMƏ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ**

3.1. Yüngül sənaye müəssisələrinin idarəetmə strukturunun təkmilləşdirilməsi

3.2. Yüngül sənaye müəssisələrinin təşkilati strukturunun inkişaf istiqamətləri

3.3. Yüngül sənayenin istehsal strukturunun modernləşdirilməsi və idarə edilməsi mexanizminin təkmilləşdirilməsi

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

## DİSSERTASİYA İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti öz əksini tapmışdır.

Dissertasiya işinin **"Yüngül sənaye müəssisələrinin idarə edilməsi mexanizminin formalaşmasının nəzəri-metodoloji məsələləri"** adlanan 1-ci fəslində yüngül sənaye müəssisələrinin idarə edilməsi mexanizminin elmi-nəzəri əsasları, idarəetmə metodları, onların məzmunu və funksiyaları və yüngül sənaye müəssisələrinin iqtisadi inkişafında idarəetmənin rolu məsələləri şərh edilir.

Yüngül sənayedə müəssisənin idarəetmə nəzəriyyələrinin öyrənilməsi bu sahədə fərqli elmi-nəzəri yanaşmaları və onların fərqli xüsusiyyətlərini üzə çıxarmağa imkan verir. A.V. Davıdov və V.İ. Knorrinq öz elmi işlərində idarəetmə sahəsində öz ölkələrindəki tədqiqatları, həm də xarici tədqiqatların yekun nəticələrini nəzəri cəhətdən ümumiləşdirmişlər. Onların gəldiyi qənaətə görə, idarəetmə nəzəriyyəsi bütün iqtisadi sistemlərin metodlarını və vasitələrini, eləcə də onlardakı baş vermiş proseslərin qanunauyğunluqlarını inkişaf etdirməkdə olan bir mexanizmdir. Digər tərəfdən idarəetmə nəzəriyyəsi yalnız məhsul istehsalı prosesləri ilə deyil, həm də insanların fəaliyyətlərinin əsas sahələri olan təşkilati- inzibati idarəetmə, elmi tədqiqat, informasiya xidmətləri, təhsil və s. ilə sıx bağlıdır[3].

Bütövlükdə idarəetmə, idarə edilən obyektə fokuslanan təsirlər və onun reallaşdırılması elementini ifadə edir. Buna rəğmən idarəetməyə ikinci bir məfhum kimi də yanaşmaq olar. Belə ki, idarəetmə - idarəetmə subyektinin idarəetmə obyektinə idarəedici təsiridir ki, nəticədə bəzi idarəetmə funksiyaları, eləcə də idarəetmə qərarları yerinə yetirilir. İdarəetmə obyekti, hər bir hadisənin hərəkətinin istiqamətləndiyi və ya idarə edilən bir prosesdir.

---

[3]Пыткин , А.Н. Ключевые направления применения теории управления в менеджменте промышленных предприятий, // – Москва: Экономика – 2012. №24, – с. 79-82

F. Hedouri, M. Meskon, M. Albert kimi tədqiqatçılar idarəetmə funksiyalarını aşağıdakı kimi təsnifləşdirmişlər: strateji planlaşdırma; strategiyanın həyata keçirilməsi yolları; təşkilati təməllərin formalaşdırılması; qarşılıqlı fəaliyyətlərin və səlahiyyətlərin müəyyən edilməsi və təşkili; motivasiya; nəzarət funksiyası[4].

Elmi tədqiqatlarda yüngül sənaye sahəsində idarəetmə mexanizminin təşkili və inkişaf etdirilimәsində başlıca prinsiplər aşağıdakılardır:

- ardıcıllıq prinsipi – idarəetmə alətinin determinantları arasında tənzimlənən və strukturlaşdırılmış qarşılıqlı əlaqələrin olması;
- yüngül sənaye obyektinin potensial imkanlarının optimal səviyyədə həyata keçirilməsi;
- uyğunlaşma – ətrafda baş verən hadisə və proseslərə çevik reaksiya verilməsi;
- bütün vəzifələrin toplum şəkildə yerinə yetirilməsi;
- idarəetmə mexanizminin subyektlərinin maraqları;
- yüngül sənayedə sahibkarlıq fəaliyyətinin inkişafının həvəsləndirilməsi;
- yenilik prinsipi – idarəetmə mexanizmində əsaslı dəyişikliklərin aparılması və onun yüngül sənayedə davamlı inkişafının təmin edilməsinə istiqamətləndirilməsi[5].

Qeyd edək ki, idarəetmədə məlumatların təhlili aşağıdakı praktiki təsirə malikdir:

- fəaliyyətin qiymətləndirilməsi: qarşıya qoyulan məqsəd və vəzifələrin hansı səviyyədə effektiv şəkildə əldə olunduğunu müəyyən etməyə şərait yaradır.
- problemin müəyyənləşdirilməsi: uğursuzluğun səbəblərini və məqsədlərə çatmağı ləngidə bilən və ya qarşısını alan maneələri müəyyən etməyə kömək edir.

---

[4] https://studfile.net/preview/2915536/page:2/

[5] Атабаева, Ф.А. Теоретические аспекты механизма функционирования промышленных предприятий // – Москва: Экономика, Статистика и Информатика, – 2015. №2, – с. 67-73.

- qərarların qəbulu: idarəetmə nəticələrinin təhlili əsasında strategiyaların tənzimlənməsi, resursların yenidən bölüşdürülməsi və proseslərin təkmilləşdirilməsi zərurəti ilə bağlı qərarlar qəbul edilir.

- məhsuldarlığın təkmilləşdirilməsi: istehsal proseslərini optimallaşdırmağa, məhsulun keyfiyyətini yaxşılaşdırmağa və istehsal xərclərini azaltmağa imkan verir.

Bununla belə, idarəetmə nəticələri haqqında məlumatların toplanmasında bir sıra çətinliklər var:

- avtomatlaşdırmanın yetərsizlik dərəcəsi: əgər məlumatların toplanması prosesləri avtomatlaşdırılmırsa, bu, gecikmələrə və qeyri-dəqiqliyə səbəb ola bilər.

- məlumatların natamam olması: İdarəetmə nəticələri haqqında tam və etibarlı məlumat əldə etmək hər zaman mümkün olmur və bu da təhlilin aparılmasını, qərar qəbuletmə prosesini çətinləşdirir.

Göstərilən problemlərin həlli üçün məlumatların toplanması, idarəetmənin təkmilləşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi və məlumatların keyfiyyətinin yüksəldilməsi istiqamətində müvafiq işlərin aparılması zəruridir. Bu da müəssisədə daha çevik idarəetməyə şərait yaradır.

İdarəetmə mexanizmi digər sferalarda olduğu kimi yüngül sənaye müəssisələri arasında da maraqların uyğunlaşdırılması prinsipləri, yüngül sənayenin inkişafı üçün dövlət siyasətinə əsaslanan istehsal proseslərinə təsir üsulları və vasitələrinin tətbiqi və idarəetmə orqanlarının effektiv fəaliyyəti ilə əlaqəli olan iqtisadi mexanizmin alt sistemidir.

Yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, idarəetmə mexanizminin təhlilində sistemli yanaşmadan istifadə müxtəlif idarəetmə komponentləri arasında əlaqələri müəyyən etməyə və onların səmərəliliyinin hərtərəfli qiymətləndirilməsini təmin etməyə imkan verir. Bu da müəssisədə idarəetmə proseslərinin və strukturlarının təkmilləşdirməsinə və optimallaşdırmasına şərait yaradır, əsaslandırılmış optimal qərar qəbuletmə proseslərini asanlaşdırır.

Yüngül sənaye müəssisələrində idarəetmə mexanizmlərinin formalaşdırılmasının əsas istiqamətləri aşağıdakılardır:

1. İnnovasiya və inkişaf. İnnovasiyaların idarə edilməsi yeni ideyaları praktiki nəticələrə effektiv şəkildə çevirən geniş metod və yanaşmaları əhatə edir. Bunlara marketinqin, texnologiyaların, ətraf mühitin idarə edilməsi, təşkilati, strateji, estetik idarəetmə və s. daxildir. İnnovasiyaların idarə edilməsi müəssisələrin bazar payının və satış həcminin artırılmasına, rəqabət üstünlüyü əldə edilməsinə və istehlakçıların artan tələbatlarının ödənilməsinə yönəlmiş bir yanaşmadır.

2. İnformasiya texnologiyaları. Buraya proqram təminatının seçilməsi və həyata keçirilməsi, avadanlığın konfiqurasiyası və müxtəlif sistemlər arasında uyğunluğun təmin edilməsi, qərara dəstək sistemlərini (DSS), biznes kəşfiyyatının (BI) və digər alətlərin istifadəsi daxildir. Bu istiqamətlər idarəetmə sisteminin təkmilləşdirilməsində informasiya texnologiyalarından səmərəli istifadə etmək üçün kompleks yanaşma və koordinasiya tələb edir.

3. İstehsal proseslərinin optimallaşdırılması. Bu məqsədə çatmaq üçün istifadə edilə bilən bəzi əsas üsullar bunlardır: axın təhlili; lean metodologiyası; istehsal proseslərinin avtomatlaşdırması; verilən məlumatların təhlili (Data Analytics). Göstərilən üsullar xərclərin azaldılmasına və səmərəliliyin artırılmasına kömək etməklə yanaşı, həm də məhsulun keyfiyyətini yaxşılaşdırmağa imkan yaradır ki, bu da son nəticədə müştəri məmnuniyyətinin artmasına və bazarda müəssisənin daha güclü mövqeyinin formalaşmasına səbəb olur.

4. Keyfiyyətin idarə edilməsi. Bu yanaşma, müasir beynəlxalq standartlara uyğunluğu saxlamağa, müştəri məmnuniyyətini artırmağa və rəqabət üstünlüyünü təmin etməyə kömək edir.

Dissertasiya işinin **“Yüngül sənaye müəssisələrinin istehsal fəaliyyətinin və idarə edilməsi vəziyyətinin qiymətləndirilməsi”** adlanan 2-ci fəslində yüngül sənaye müəssisələrinin iqtisadi göstəriciləri araşdırılır, onların iqtisadi inkişaf parametrləri qiymətləndirilir, yüngül sənaye müəssisələrinin və istehsal

resurslarının idarə edilməsinə daxili və xarici amillərin təsiri və onların ekonometrik qiymətləndirilməsi təhlil edilir.

Yüngül sənaye müəssisələrinin əsas iqtisadi göstəricilərinin təhlili göstərir ki, bu sahədə sənaye məhsulunun fiziki həcm indeksi geyim istehsalında 64,1%, dəri və dəri məmulatları, ayaqqabı istehsalında 50,8% artmış, toxuculuqda 1,9% azalmışdır. Sənaye məhsulunun ümumi həcm indeksində sahələrin xüsusi çəkisi 2018-ci illə müqayisədə 2022-ci ildə toxuculuqda 20% azalmış, geyim və dəri məmulatları və ayaqqabı istehsalında əsaslı dəyişiklik baş verməmişdir. Sənayeyə yönəldilən investisiyaların həcmində sahəyə qoyulan investisiyaların payı göstəricisində toxuculuqda 40% azalmış, geyim və dəri məmulatları və ayaqqabı istehsalında pay artımı olmamışdır (cədvəl 1).

**Cədvəl 1**

**Azərbaycan Respublikasında yüngül sənaye sahələrinin inkişaf dinamikası**

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Sənaye məhsulunun fiziki həcm indeksi, əvvəlki ilə nisbətən, faizlə: | | | | | |
| toxuculuq | 142,4 | 133,2 | 84,2 | 127,2 | 98,1 |
| geyim istehsalı | 98,3 | 122,6 | 135,8 | 87,0 | 164,1 |
| dəri, dəri məmulatları və ayaqqabı istehsalı | 123,3 | 97,1 | 116,8 | 116,4 | 150,8 |
| Sənaye məhsulunun ümumi həcmində sahənin payı, faizlə: | | | | | |
| toxuculuq | 0,5 | 0,7 | 0,7 | 0,7 | 0,4 |
| geyim istehsalı | 0,2 | 0,2 | 0,3 | 0,2 | 0,2 |
| dəri, dəri məmulatları və ayaqqabı istehsalı | 0,1 | 0,1 | 0,1 | 0,0 | 0,0 |
| Sənayeyə yönəldilən nvestisiyaların həcmində sahəyə qoyulan investisiyaların payı, faizlə: | | | | | |
| toxuculuq | 0,5 | 0,9 | 0,2 | 0,3 | 0,3 |
| geyim istehsalı | 0,3 | 0,2 | 0,3 | 0,3 | 0,3 |
| dəri, dəri məmulatları və ayaqqabı istehsalı | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |

*Mənbə:Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Texnoloji innovasiyalara ayrılan xərclərin dinamikasının növlər üzrə təhlili göstərir ki, 2021 və 2022-ci illər istisna olmaqla, bütün illərdə bütövlükdə sənaye üzrə 2018-ci illə müqayisədə bu göstəricidə davamlı artım müşahidə olunur. Belə ki, 2018-ci illə müqayisədə 2019-cu ildə 39,8%, 2020-ci ildə 4,6% artım qeydə alınmışdır. 2021 -ci il istisna olmaqla bütün sənaye üzrə məhsul innovasiyalarına çəkilən xərclər proses innovasiyalarına nisbətən üstünlük təşkil etmişdir. Emal sənayesində 2021-ci ildən başqa digər illərdə məhsul innovasiyalarına çəkilən xərclər proses innovasiyalarına nisbətən üstünlük təşkil etmişdir. Toxuculuqda innovasiyaların tiplərinə görə texnoloji innovasiyalara çəkilən xərclər yalnız məhsul innovasiyalarına yönəldilmiş, proses innovasiyalarında vəsait qoyuluşu qeydə alınmamışdır (cədvəl 2).

**Cədvəl 2**

**Azərbaycan Respublikası üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat**

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2018-ci ilə nisbətən 2022-ci ildə, %-lə |
|---|---|---|---|---|---|---|
| Bütün sənaye | 34353,6 | 48037.1 | 35919.8 | 5848,3 | 22540,4 | - 34,4 |
| məhsul innova-siyaları | 23298,7 | 38343.5 | 20059.2 | 1986,3 | 18154,3 | - 22,1 |
| proses innova-siyaları | 11054,9 | 9693.6 | 15860.6 | 3862,0 | 4386,1 | - 60,3 |
| Emal sənayesi | 32967,6 | 47658.5 | 34918.7 | 5318,5 | 22521,1 | - 31,7 |
| məhsul innova-siyaları | 22619,4 | 38053.5 | 19421.0 | 1868,9 | 18135,0 | - 19,8 |
| proses innova-siyaları | 10348,2 | 9605.0 | 15497.7 | 3449,6 | 4386,1 | - 57,6 |
| Toxuculuq sənayesi | - | - | 250.0 | - | - | - |
| məhsul innova-siyaları | - | - | 250.0 | - | - | - |

*Mənbə: Cədvəl DSK məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Respublikamızda yüngül sənaye sahələri üzrə sərmayə qoyuluşu, fərdi sahibkarlıq subyektlərinin sayı və emal sənayesində çalışan işçilərin nominal orta aylıq əmək haqqı arasında yaranan

əlaqəni Eviews-12 proqram paketinin istifadəsi ilə qiymətləndirilmiş və aşağıdakı nəticə əldə edilmişdir.

**Cədvəl 3**

**Azərbaycan Respublikasında yüngül sənaye sahələrində sərmayə qoyuluşu, fərdi sahibkarlıq subyektlərinin sayı və emal sənayesində orta aylıq əmək haqqı və emal sənayesi üzrə ümumi məhsul buraxılışı arasındakı əlaqə**

Dependent Variable: YN
Method: Least Squares
Date: 05/22/22 Time: 15:12
Sample: 2005 2020
Included observations: 16

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| LN | 0.418735 | 0.098229 | 4.262852 | 0.0011 |
| KN | 0.052303 | 0.027830 | 1.879353 | 0.0847 |
| IN | 1.820673 | 0.632617 | 2.878003 | 0.0139 |
| C | -47.97023 | 33.72155 | -1.422539 | 0.1803 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.866224 | Mean dependent var | 175.0438 |
| Adjusted R-squared | 0.832780 | S.D. dependent var | 126.2324 |
| S.E. of regression | 51.61964 | Akaike info criterion | 10.93800 |
| Sum squared resid | 31975.04 | Schwarz criterion | 11.13115 |
| Log likelihood | -83.50399 | Hannan-Quinn criter. | 10.94789 |
| F-statistic | 25.90075 | Durbin-Watson stat | 1.308673 |
| Prob(F-statistic) | 0.000016 | | |

Mənbə: Eviews-12 tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Eviews-12 tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə görə reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

$\boldsymbol{Y = 0,41874L_n + 0,052303K_n + 1,82067İ_n - 43,9702}$, $\boldsymbol{R^2} = 0,866$ **(3)** (t)

(4,263) (1,879) (2,878) (-1,422) DW=1,309

Əlaqə tənliyində izahedici dəyişənlərin ($L_n$, $K_n$ $və$ $İ_n$) əmsalları, bu əmsalların xətalarından əhəmiyyətli drəcədə yüksək olduğuna görə (3) modeli statistik əhəmiyyətlilidir

F-Fişer kriteriyasının köməkliyi ilə reqressiya tənliyinin statistik əhəmiyyətliliyini yoxlamaq məqsədi ilə F-Fişer kriteriyası, $F_{cədvəl}$ $(\text{a}; \text{m}; \text{n} - \text{m} - 1)$ qiyməti ilə müqayisə edilmiş və F-Fişer kriteriyası (25,9) $> F_{cədvəl}$ (3,99) alınmışdır. Alınmış müqayisə onu göstərir ki, reqressiya tənliyi ümumilikdə F- Fişer kriteriyasına əsasən statistik əhəmiyyətlidir.

Darbon-Uotson statistikası Eviews-12 tətbiqi proqram paketinə əsasən DW=1,309-a, 95%-li inamlı intervalla, $\alpha = 0,05$ əhəmiyyətlilik səviyyəsində üç izahedici dəyişən (m=3) və n=16 müşahidə dövrü üzrə Darbon-Uotsonun böhran nöqtələrinin $d_l = 0,857$ $d_u = 1,728$ olduğundan,

$d_l = 0,857 \leq \text{DW} = 1,309 < d_u = 1,728$ alınır ki, bu da tədqiq olunan göstəricilər arasında avtokorrelyasiyanın mövcudluğu haqqında nəticənin təyin edilməməmiş olması deməkdir. Darbon-Uotsonun böhran nöqtələrinin xarakeristikalarına əsasn hesab etmək olar ki, reqressiya tənliyi statistik əhəmiyyətli xarakterə malikdir və qurulmuş $\boldsymbol{Y = 0,41874L_n + 0,052303K_n + 1,82067İ_n - 43,9702}$ modeli adekvat modeldir.

Modelin kriteriyalar üzrə adekvatlığı müəyyən edildiyindən elastiklik əmsalı üzrə səbəb amillərinin 1% artmasının nəticə amilinə təsirini müəyyən edə bilərik. Bu baxımdan elastiklik əmsalı modelə əsasən hər bir amil üzrə hesablanmçış və aşağıdakı nəticə alınmışdır.

$$E_{\text{Emal sənayesi üzrə orta aylıq əmək haqqı )Kl)}} = \frac{\alpha_1 \times \overline{L_n}}{\bar{Y}} = \frac{0,41874 \times 362,0438}{175,0438} = 0,866082$$

$$E_{əsas\ kapitala\ yönəldilən\ investisiya(\text{İn})} = \frac{\alpha_2 \times \overline{İ_n}}{\bar{Y}} = \frac{1,82067 \times\ 26,47063}{175,0438} = 0,275327$$

$$E_{\text{Fərdi sahibkarların sayı (Kn)}} = \frac{\alpha_1 \times \overline{K_n}}{\bar{Y}} = \frac{0{,}052303 \times \; 443{,}9375}{175{,}0438} = 0{,}132648$$

Elastiklik əmsalının hesablanmış qiymətlərinə əsasən müəyyən edilmişdir ki, tədqiq olunan dövr üzrə Azərbaycanda emal sənayesi üzrə orta aylıq nominal əmək haqqının 1% artması, yüngül sənaye üzrə məhsul istehsalının həcminin 0,87% artması ilə, əsas kapitala yönəldilən investisiyaların 1% artması yüngül sənaye üzrə ümumi məhsul buraxılışının həcminin 0,28% artması ilə, yüngül sənaye üzrə fərdi sahikarların sayının 1% artması isə yüngül sənaye üzrə ümumi məhsul buraxılışının 0,13% artması ilə nəticələnir.

EViews tətbiqi proqram paketinə əsasən $Y = \mathbf{0,41874}\boldsymbol{L_n} + \mathbf{0,052303}\boldsymbol{K_n} + \mathbf{1,82067}\text{İ}_n - \mathbf{43,9702}$ reqresiya tənliyi yüngül sənaye üzrə ümumi məhsul buraxılışının illər üzrə qiymətləri və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları aşağıdakı qrafikdə göstərilmişdir.




| | |
|---|---|
| Forecast: YNF | |
| Actual: YN | |
| Forecast sample: 2005 2020 | |
| Included observations: 16 | |
| Root Mean Squared Error | 44.70392 |
| Mean Absolute Error | 32.45297 |
| Mean Abs. Percent Error | 24.17109 |
| Theil Inequality Coef. | 0.105870 |
| Bias Proportion | 0.000000 |
| Variance Proportion | 0.035887 |
| Covariance Proportion | 0.964113 |
| Theil U2 Coefficient | 1.180344 |
| Symmetric MAPE | 22.13538 |

**Qrafik 1. Azərbaycanda yüngül sənaye üzrə ümumi məhsul buraxılışının illər üzrə qiymətləri və standart səhvləri, proqnoz üçün xarakteristikaları**

*Mənbə: Eviews-12 tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Qrafikdən göründüyü kimi modelin proqnoz xarakteristikaları Azərbaycan Respublikasında yüngül sənaye üzrə ümumi məhsul buraxılışının proqnoz qiymətlərini hesablamaq üçün istifadə edilə bilər.

**“Yüngül sənaye müəssisələrinin idarə edilməsi modelləri və idarəetmə mexanizminin təkmilləşdirilməsi”** adlanan 3-cü fəsildə yüngül sənaye müəssisələrinin idarəetmə strukturunun təkmilləşdirilməsi, yüngül sənaye müəssisələrinin təşkilati strukturunun inkişaf istiqamətləri və yüngül sənayenin istehsal strukturunun modernləşdirilməsi və idarə edilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətləri öz əksini tapır.

Bazar mühitində müəssisələrin sabitliyini təmin etmək üçün müvəfəqiyyətlə rəqabət aparmağa imkan verən innovasiya strategiyalarını işlənib hazırlanması ən vacib məsələlərdəndir. Müəssisələrin səmərəli fəaliyyət göstərməsi ona yeni məhsul və texnoloqiyaların axtarışı və ya işlənib hazırlanması ilə məşğul olmağa imkan verir. İnnovasiya siyasətinin hazırlanması potensial imkanlarının qiymətləndirilməsindən və müvafiq resurslarla təminatından irəli qələrək onun perspektivdə inkişafının məqsəd və strategiyasının müəyyən edilməsini nəzərdə tutur[6].

Vurğulayaq ki, müəssisənin idarəetmə strukturunda bölmələrin və səviyyələrin sayının artması idarəetmə və qərar qəbulu ilə bağlı ünsiyyətin mürəkkəbləşməsi, informasiya itkisi riski, bürokratiyanın artması, çevikliyin azaldılması kimi bir sıra problemlərə gətirib çıxara bilər. Bu problemlərin öhdəsindən gəlmək üçün yüngül sənaye müəssisələr idarəetmənin qeyri-mərkəzləşdirilməsi, kommunikasiya və informasiya texnologiyaları sistemlərinin təkmilləşdirilməsi, yerli muxtariyyət və məsuliyyətin artırılması kimi müxtəlif yanaşmalardan istifadə edə bilər.

Araşdırmalar göstərir ki, strateji məqsədlərin həyata keçirilməsini təmin edən səmərəli idarəetmə dominantlığı yüngül sənaye müəssisələrinin idarə edilməsi təcrübəsində təkmilləşdirilmiş metodiki təminatın köməyi ilə tətbiq oluna bilər. Bu model struktur modernləşdirmənin metodoloji əsasını təşkil edir, metodoloji və təcrübi tətbiq arasında əlaqə yaradır, digər tərəfdən isə nəzəriyyənin və metodoloji vasitələrin iqtisadiyyatda tətbiqi yollarını müəyyən etməyə imkan verir.

---

[6] Абдиева, Г.З. Пути эффективного использования потенциалом конкурентоспособности предприятий легкой промышленности // – Москва: Экономика и предпринимательство, – 2017. №7, – с. 1172-1174.

Yüngül sənaye müəssisələrində idarəetmə mexanizmlərinin blok-sxeminin qurulması, müəssisənin strateji məqsədlərinə çatmaq üçün mühüm bir vasitədir. Bu sxem tənzimləmə, planlaşdırma və nəzarət proseslərinin daha səmərəli həyata keçirilməsi üçün əhəmiyyətlidir. Belə strukturlar, müəssisələrin çevikliyini artırır və resursların səmərəli istifadəsini təmin edir. Bu sxem idarəetmə sisteminin əsas komponentlərini və onların bir-biri ilə əlaqələrini göstərir. Aşağıda idarəetmə mexanizmlərinin blok sxeminin əsas komponentləri verilmişdir.

Blok I. Yüngül sənaye müəssisələri üçün strateji planlaşdırma bazar rəqabətinə uyğunlaşma, innovativ texnologiyaların tətbiqi və iqtisadi dayanıqlığın təmin olunması baxımından əhəmiyyətlidir. Strateji planlaşdırmanın əsas mərhələləri aşağıdakılardır: mövcud vəziyyətin təhlili (SWOT Təhlili); strateji məqsədlərin müəyyənləşdirilməsi; strategiyaların seçilməsi; strateji planın həyata keçirilməsi; Nəticələrin monitorinqi və qiymətləndirilməsi.

Blok II. Məqsədlərin müəyyənləşdirilməsi iqtisadi idarəetmənin əsas olmaqla müəssisənin ümumi fəaliyyət strategiyasını təşkil edir. Yüngül sənaye müəssisələri üçün məqsədlər strateji və operativ olmaqla iki əsas istiqamətdə müəyyən edilir: uzunmüddətli iqtisadi dayanıqlıq, bazarlarda rəqabətqabiliyyətliliyin artırılması və məhsul çeşidinin genişləndirilməsi; istehsal proseslərinin optimallaşdırılması, qısa müddətli mənfəət hədəfləri və resursların səmərəli idarə olunması.

Blok III. Yüngül sənaye müəssisələrinin fəaliyyətində resursların effektiv idarə olunması vacib istiqamətlərdən biridir. Bu proses insan, maliyyə, material və texnoloji resursların inteqrasiyasını əhatə edir.

Blok IV. İstehsalın optimallaşdırılması, müəssisələrdə resursların daha səmərəli və effektiv istifadəsi ilə məhsul istehsalının keyfiyyətini artırmaq, xərcləri azaltmaq və məhsuldarlığı maksimum səviyyəyə çatdırmaq üçün proseslərin təkmilləşdirilməsini nəzərdə tutur. Optimallaşdırma prosesi qərar qəbuletmə modellərinə əsaslanaraq istehsal planlaması, proses axınları, avadanlıqların idarə olunması və resursların bölgüsünün ən uyğun həllərini tapmağa yönəlir.

Blok V. Maliyyənin idarəedilməsi yüngül sənaye müəssisələrinin davamlı fəaliyyətinin əsas elementlərindən biridir. Buraya aşağıdakı proseslər daxildir: büdcə planlaşdırılması və maliyyə resurslarının bölgüsü; mənfəət və zərərin təhlili; likvidlik göstəricilərinin monitorinqi və kapitalın optimallaşdırılması; investisiya qərarlarının qəbul edilməsi və risklərin qiymətləndirilməsi.

Blok VI. Rəqabətli bazarda yüngül sənaye məhsullarının bazara çıxarılması marketinq strategiyalarının effektivliyindən asılıdır. Marketinq idarə edilməsi aşağıdakı mərhələləri əhatə edir: bazar araşdırması; məhsul strategiyası; qiymət siyasəti; reklam və təşviqat.

Blok VII. İqtisadi idarəetmənin mühüm elementlərindən biri texnoloji yeniliklərin tətbiqidir. Bu komponent müəssisələrin istehsal gücünün artırılması və istehlakçılara daha keyfiyyətli məhsul təqdim etməsi üçün vacibdir və bunlar aşağıdakılardır: yeni texnologiyaların tətbiqi ilə istehsal xərclərinin azaldılması; rəqəmsal avtomatlaşdırma və IoT həllərinin tətbiqi; Ar-Ge (elmi tədqiqatların və texnoloji inkişafın birgə həyata keçirildiyi proses) fəaliyyətləri vasitəsilə yeni məhsul və xidmətlərin yaradılması; ekoloji cəhətdən təmiz texnologiyaların təşviqi.

Blok VIII. Yüngül sənaye müəssisələrinin iqtisadi inkişafında potensial risklərin idarə olunması mühüm yer tutur. Risklərin idarə olunması aşağıdakı mərhələlərdə həyata keçirilir: risklərin müəyyən edilməsi; risklərin təhlili, minimallaşdırılması və monitorinqi.

Blok IX. İqtisadi idarəetmə mexanizmlərinin effektivliyinin ölçülməsi və təhlili üçün davamlı monitorinq tələb olunur. Bu komponent aşağıdakıları əhatə edir: performans göstəricilərinin təhlili; keyfiyyət göstəriciləri və onun monitorinqi; qərar qəbulunun təkmilləşdirilməsi.

Beləliklə, yüngül sənaye müəssisələrinin idarəetmə mexanizmlərinin blok-sxem modeli müəssisələrin iqtisadi fəaliyyətlərinin səmərəli şəkildə idarə olunmasını təmin etmək məqsədilə sistemli yanaşmanı nümayiş etdirən mühüm bir alətdir. Bu model müəssisələr arasında qarşılıqlı əlaqələrin tənzimlənməsi, resursların optimal istifadəsi, qərar qəbuletmə proseslərinin

strukturlaşdırılması və əldə olunan nəticələrin qiymətləndirilməsi üçün kompleks çərçivə yaradır.

Eyni zamanda, modelin tətbiqi müəssisələrdə strateji planlaşdırmanın gücləndirilməsi, əməliyyat effektivliyinin artırılması və müasir idarəetmə texnologiyalarının tətbiqi üçün əlverişli mühit formalaşdırır. Bu yanaşma rəqabət üstünlüyü əldə etmək, risklərin idarə olunmasını təkmilləşdirmək və dinamik iqtisadi mühitdə çevik qərar qəbuletmə qabiliyyətini artırmaq üçün strateji əhəmiyyət kəsb edir. Nəticə etibarilə, blok-sxem modeli müəssisələrin yalnız mövcud iqtisadi fəaliyyətlərini optimallaşdırmaqla kifayətlənmir eyni zamanda gələcək inkişaf strategiyalarını formalaşdırmaq üçün də mühüm bir vasitə kimi çıxış edir.




**Sxem 1. Yüngül sənaye müəssisələrinin iqtisadi idarəetmə mexanizminin blok - sxemi**

## NƏTİCƏ

Yüngül sənaye müəssisələrinin idarə edilməsi mexanizminin mövcud vəziyyətinin araşdırılması bir sıra ümumiləşdirilmiş nəticələr əldə etməyə imkan yaradır.

1. Yüngül sənaye sahələrinin mövcud vəziyyətinin təhlili göstərir ki, bəzi sahələrdə inkişaf dinamikası qənaətbəxş səviyyədə deyil. Belə vəziyyətin yaranması bir sıra səbəblərlə bağlıdır: daha təkmil idarəetmə mexanizmlərindən lazımi səviyyədə istifadə edilməməsi, bəzi hallarda istehlakçıların aşağı ödəmə qabiliyyəti, maliyyə çatışmazlığı hallarının mövcudluğu, investisiya qoyuluşunun azlığı, yeni texnologiyalardan istifadə meylinin aşağı səviyyəsi, məhsulların satışında çətinliklər, iqtisadi əlaqələrin qeyri-sabitliyi və s.

2. İqtisadi mühitin dinamizm səviyyəsinin artması ilə idarəetmə sistemlərinin əsasında qurulan prinsiplər də dəyişməlidir. Bu və ya digər şəkildə, inzibati idarəetməni özündə cəmləşdirən köhnə prinsiplər, tabeçilik və təşəbbüskarlıq prinsiplərinin qarşılıqlı əlaqəsini əhatə edən yenilikləri şərtləndirir. Uğurlu idarəetmə sisteminin yenidən qurulması üçün əsas şərtlərdən biri idarəetmə məqsədlərinin daha səmərəli reallaşdırılmasına xidmət edən mexanizmlərin formalaşdırılmasıdır. Daha təkmil idarəetmə sisteminin yaradılması yüngül sənaye müəssisələrinin iqtisadi vəziyyətinə müsbət təsir etməklə bir çox təşkilati, texniki, maliyyə, iqtisadi, sosial, psixoloji və digər problemlərin aradan qaldırılmasını təmin edir.

3. Hazırda yüngül sənaye müəssisələrində mövcud olan idarəetmə sistemi müəyyən dərəcədə təsirsizdir və bu, bütün problemləri çevik şəkildə həll etmək iqtidarında deyil. Bəzi sahələrdə məlumatların ötürülməmə qabiliyyətinin aşağı səviyyəsi, səmərəsiz məlumat və təşkilati quruluşun mövcudluğu bu baxımdan daha öndə durur. Bunun nəticəsidir ki, yüngül sənaye müəssisələrinin idarəetmə sistemi tez bir zamanda optimal idarəetmə ilə bağlı çevik qərarı vermək iqtidarında deyil.

4. Sənaye 4.0 istehsal sənayesində əsaslı inqilabi dəyişiklik yaratmaqla, kiber-fiziki istehsal sistemləri və ağıllı fabriklər istehsal proseslərinin çevikliyini təmin edir. Bu sistemlər rəqəmsal

transformasiya və texnoloji yeniliklər vasitəsilə, ənənəvi istehsal modelindən müasir, intellektual istehsal modellərinə keçir. Bu, istehsalın səmərəliliyini artırılmasına öz töhvəsini verməklə daha dayanıqlı və inovativ biznes mühitinin yaradılmasına şərait yaradır.

5. Yüngül sənayenin daxili və xarici investorlar üçün cəlbediciliyinin aşağı səviyyədə olması, bir sıra kompleks və qarşılıqlı təsir edən amillərlə əlaqəlidir. Bu amillərə maliyyə resurslarının məhdudluğu, daxili infrastruktur problemləri, bazar saturasiyası (doyma), tənzimləyici maneələr, ticarət çətinlikləri və iqtisadi sabitliyin pozulması ilə yanaşı həm də dövlət dəstəyi və qanunvericilik mühitinin qeyri-sabitliyi, bazar rəqabətinin sərtliyi, insan kapitalının keyfiyyəti və iqtisadi sabitlik məsələlərini əhatə edir. Bu problemlərin aradan qaldırılması üçün dövlətin və müvafiq instansiyaların strateji yanaşmalarla müvafiq təşəbbüslər irəli sürməsi zəruridir.

6. Respublikada yaradılan sənaye parkları və texnoparklar, yüngül sənaye müəssisələrinin inkişafında vacib rol oynayır. Bu, müasir istehsal mühitləri, innovativ ideyaların reallaşdırılması, resursların səmərəli istifadəsi və əməkdaşlıq imkanlarının genişlənməsi baxımından mühüm imkanlar sərgiləyir. İnnovasiya və müasir texnologiyaların tətbiqi yüngül sənaye sektorunun qlobal mühitdə bazar payının artırılmasına şərait yaradır.

7. Azərbaycanda yüngül sənaye sahələri üzrə ərazi-istehsal və sənaye klasterlərinin yaradılması, yalnız istehsalın inkişafı deyil, həm də ölkənin iqtisadi müxtəlifliyinin gücləndirilməsi, sosial rifahın artırılması və beynəlxalq bazarda mövqeyinin möhkəmləndirilməsi üçün zəruridir.

8. Yüngül sənaye müəssisələrinin aqrar sektorda, xüsusilə kənd təsərrüfatı məhsullarının emalı sahəsindəki əməkdaşlıq, məhsuldarlığın artırılması və həmin sahənin iqtisadiyyatının güclənməsi üçün vacib şərtdir. Aqrar sektordan əldə edilən xammalın yüngül sənaye müəssisələrində istifadə olunması, yerli istehsalın tələbata uyğun artırılmasını və rayonların iqtisadi inkişafının dəstəklənməsini tələb edir ki, bu da təbii materialların emalı (pambıq, yun, dəri və dəri məmulatları) üzrə əməkdaşlığın əsas istiqamətlərindən hesab edilir.

9. Qiymətqoyma strategiyaları, bazarda mövcud olan rəqiblərin qiymət siyasətlərini nəzərə alaraq formalaşmaqla müəssisənin bazar payının artırılmasına və müştəri bazasının genişləndirilməsinə imkan yaradır. Bazar konyunkturasının dəyişməsi, müəssisələrin məhsullarının qiymətlərinin çevik şəkildə dəyişdirilməsini tələb edir.

10. Yüngül sənaye sahələrində texnologiyaların transferi, müəssisələrin müasir dövrdə mütərəqqi inkişafını təmin edir və bu prosesin uğurlu həyata keçirilməsi üçün yaradılan mühitin, iqtisadi və siyasi dəstəyin, həmçinin strateji planlamanın təşkili vacibliyini şərtləndirir.

Qeyd edilən nəticələrə əsaslanaraq yüngül sənaye müəssisələrinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi, daha müasir və çevik idarəetmə modelinin formalaşdırılması və idarəetmə sisteminin səmərəliliyinin yüksəldilməsi məqsədilə aşağıdakı təklifləri ümumiləşdirmək olar:

1. İdarəetmə sisteminin iş proseslərinin xarakterinə uyğunlaşdırılmasının təmin edilməsi. Bu, ümumi inkişaf strategiyasına uyğun olaraq, davamlı inkişaf strategiyasına söykənir ki, bu da uzun müddət ərzində ardıcıl olaraq satış həcmini və mənfəəti artırmağa imkan yaradır.
2. Yüngül sənaye müəssisələri üçün təşkilati inkişafa yönəlmiş istehsalın idarə edilməsinin əsas müddəaları, elementləri və funksiyalarının əlaqələndirilməsi.
3. Müəssisənin zəmanətli uğur qazanması üçün aşağıdakı prioritet istiqamətlərdən istifadə təklif olunur:

- rəqabət üstünlüklərinə nail olmaq üçün resurslardan innovativ fəaliyyət məqsədilə optimal şəkildə istifadəni özündə ehtiva edən, qısamüddətli və uzunmüddətli məqsəd və vəzifələri optimal şəkildə birləşdirən idarəetmə strategiyasının hazırlanması və həyata keçirilməsi;
- marketinq konsepsiyasının həm əməliyyat, həm də strateji idarəetmə sistemlərindəki rolunu köklü şəkildə artırmaq istiqamətində strategiyasının hazırlanması və həyata keçirilməsi.

4. Yüngül sənaye sferasında istehsalın idarəetmə modelinin əsas elementlərinin, xüsusilə strateji planlaşdırma, səmərəli idarəetmə və təşkilati mexanizmlərin formalaşdırılması.
5. Yüngül sənaye müəssisələrində iqtisadi artım meylini gücləndirmək üçün idarəetmənin mövcud potensialının tələb olunan parametrlərinə nail olmaqla struktur modernləşdirmə proqramlarının işlənib hazırlanması və icrasının təmin edilməsi.
6. Strukturlaşdırılmış xarici və daxili məlumatların sistemli şəkildə toplanması, işlənməsi və təhlil edilməsi işlərini yerinə yetirən marketinq informasiya sisteminin formalaşdırılması.
7. Müəssisələrin rəqabət və innovativ məhsullar istehsalını səmərəli şəkildə həyata keçirmək qabiliyyətini əks etdirən potensialı müəyyənləşdirmək üçün idarəetmə alt sisteminin fəaliyyətinin davamlı olaraq qiymətləndirilməsi.
8. Yüngül sənaye müəssisələrinin qlobal iqtisadiyyata və beynəlxalq informasiya şəbəkəsinə inteqrasiyası üçün elmi və praktik məlumatların işlənməsinin müasir mexanizm və vasitələrinin işləyib hazırlanması və tətbiqinə nail olunması.

**Dissertasiya işindən əldə olunmuş nəticələr və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır.**


1. Abdiyeva, G.Z. Təşkilatlarda münaqişələrin neytrallaşdırılması səmtləri. Azərbaycan Texnologiya Universiteti "Boloniya təhsil prosesində Universitet – Sənaye əlaqələrinin müasir problemləri". // Beynəlxalq simpoziumun materialları. Gəncə 2016. Səh. 390 – 391.
2. Məcidov, R.H., Abdiyeva, G.Z. Müəssisənin rəqabətqabiliyyətliliyi və rəqabət mühitinin konseptual əsasları. Azərbaycan Texnologiya Universiteti "Urbanizasiyalı sənayeləşmə şəraitində mədəni irsin və biomüxtəlifliyin qorunması" // Beynəlxalq elmi-praktiki konfrans. II hissə. Gəncə - 2017. Səh. 87 – 88.
3. Абдиева, Г.З. Пути эффективного использования потенциалом конкурентоспособности предприятий легкой промышленности. Экономика и предпринимательство №7 // под ред. Чевычелов В.А. Москва – 2017. стр. 1172 – 1174.

4. Abdiyeva, G.Z. Yüngül sənaye müəssisələrinin idarə edilməsi prosesində marketinqdən istifadə. Azərbaycan Kooperasiya Universiteti «Kooperasiya» elmi – praktiki jurnal. // Bakı, №2 (49) 2018. Səh. 155-158.
5. Abdiyeva, G.Z. Yüngül sənaye müəssisələrinin iqtisadi inkişaf perspektivləri. ADAU –nun Elmi əsərləri. // Gəncə ADAU nəşriyyatı, 2018, №4. Səh. 145–147.
6. Абдиева, Г.З. Управление инновационным потенциалом в лёгкой промышленности. Стратегические вызовы и тенденции социально-экономического развития регионов: сборник научных трудов по итогам проведения круглого стола // под ред. Радько С.Г. – М.: РГУ им. А.Н. Косыгина, 26 сентября 2019. стр. 11-13.
7. Абдиева, Г.З., Исмайлов, В.А. Методы прогнозирования конъюнктуры рынка текстильных материалов. Машинашуносликнинг долзарб муаммолари ва уларнинг ечими. Академик Х.Х.Усмонхўжаев таваллудининг 100 йиллигига бағишланган Республика илмий – амалий конференцияси мақолалар тўплами. // 2 – қисм, Тошкент – 2019, 20-21 ноябрь, Стр. 184 – 186.
8. Abdiyeva, G.Z., Əliyeva, Ş.Y. Yüngül və toxuculuq sənayesi üzrə istehsalın rəqabətqabiliyyətliyinin əsasları. Bakı Mühəndislik Universiteti, Beynəlxalq Elmi – Praktiki Konfrans. // 29 – 30 noyabr 2019, Bakı. Səh. 393 – 396.
9. Məcidov, R.H., Abdiyeva, G.Z. Biznes təşkilatlarında rəhbərlə tabeçilikdə olanların qarşılıqlı münasibətlərinin etik – psixoloji xüsusiyyətləri. Azərbaycan Texnologiya Universiteti "İnnovasiyalı iqtisadiyyat və menecment" jurnalı // №1/3 Gəncə, 2020. Səh. 132-140.
10. Abdiyeva, G.Z. Yüngül sənaye müəssisələrinin idarəetmə strukturunun inkişaf istiqamətləri. Azərbaycan Texnologiya Universiteti "İnnovasiyalı iqtisadiyyat və menecment" jurnalı // №1/5 Gəncə - 2021. Səh. 101 – 106.
11. Мамедова, Х.Ф., Мамедов, Ф.А., Ташпулатов, С.Ш., Алиева, Ш.Я., Абдиева, Г.З., Мамедова, Г.Р. Стратегия рыночного управления в переходном периоде. ТЕХНОЛОГИЯ

ТЕКСТИЛЬНОЙ ПРОМЫШЛЕН-НОСТИ. № 2 (404). 2023. стр.18 – 23

12. Abdiyeva, G.Z., Məcidov, R.H. Karyeranın strateji idarə edilməsinin konseptual əsasları. HODJA AKHMET YASSAWI 7. International Congress on Scientific Research Mingachevir State University, Mingachevir, Azerbaijan. February 24-25. 2023. Səh. 291 - 296
13. Abdiyeva, G.Z., Məcidov, R.H. Müəssisənin idarəetmə sisteminin təkmilləşdirilməsində informasiya texnologiyalarının əsas istiqamətləri. Proceedings Book II. International Conference on Engineering Sciences SEPTEMBER 21-22, 2023 // GANJA, AZERBAIJAN AZERBAIJAN TECHNOLOGICAL UNIVERSITY. september 21-22. 2023. Səh. 661 – 670
14. Abdiyeva, G.Z., Məcidov, R.H. Rəqəmsallaşmanın müəssənin idarə edilməsində yeri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Dördüncü sənaye inqilabı və innovativ texnologiyalar” Beynəlxalq elmi-praktiki konfransın materialları. 3-cü hissə 3 – 4 may Gəncə - 2023. Səh. 421 – 422.

Dissertasiya müdafiəsi 07 mart 2025-ci il tarixində saat $12^{00}$-da AR ETN İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.10 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr., 115., Azərbaycan Respublikasın Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu.

E-mail: economicscomaz@gmail.com

Dissertasiya ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Azərbaycan İqtisadiyyat İnstitutunun rəsmi internet saytında (https://economics.org.az/) yerləşdirilmişdir.

Avtoreferat 03 fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir

Çapa imzalanıb: 23.01.2025

Kağızın formatı: A5

Həcm: 36.802

Tiraj: 100